# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT STATİSTİKA KOMİTƏSİ İLƏ BOLQARISTAN RESPUBLİKASI MİLLİ STATİSTİKA İNSTİTUTU ARASINDA STATİSTİKA SAHƏSİNDƏ ƏMƏKDAŞLIQ HAQQINDA SAZİŞ

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi və Bolqarıstan Respublikası Milli Statistika İnstitutu,

qarşılıqlı anlaşma, qarşılıqlı fayda və bərabərlik prinsiplərini rəhbər tutaraq,

əməkdaşlıqda qarşılıqlı marağa, statistik informasiya mübadiləsinin genişləndirilməsinə və hər iki dövlətin statistika orqanlarının qarşılıqlı fəaliyyətinin yaxşılaşdırılmasına əsaslanaraq,

Azərbaycan Respublikasının və Bolqarıstan Respublikasının dövlət strukturlarının və ictimaiyyətinin obyektiv informasiya ilə vaxtında təmin edilməsi məqsədi ilə,

yuxarıda göstərilən məqsədlərə nail olmaq üçün müvafiq şəraitin yaradılmasını arzu edərək,

belə əməkdaşlığın beynəlxalq əməkdaşlığın ümumi strukturunun tərkib hissəsi olacağını nəzərə alaraq

aşağıdakılar barədə razılığa gəldilər:

## Maddə 1

(1) Tərəflər aşağıdakı sahələrdə statistika üzrə əməkdaşlıq edəcəklər:

1. Milli hesablar sistemi;
2. Təsnifatlar, nomenklaturalar və reyestrlər;
3. Müəssisələrin statistikası;
4. Elmi-tədqiqat fəaliyyəti, açıqlanma və innovasiya statistikası;
5. Xarici ticarət statistikası;
6. Əhalinin yaşayış səviyyəsinin statistikası;
7. Kənd təsərrüfatı statistikası;
8. Sənaye statistikası;
9. Xidmət statistikası;
10. Məşğulluq və işsizlik statistikası;
11. Demoqrafiya statistikası;
12. Region statistikası;
13. Statistik informasiyanın yayılması.

(2) Tərəflər məqsədəuyğun hesab etdikləri və birlikdə razılaşdıqları digər məsələlər üzrə də əməkdaşlığı nəzərdə tutacaq və həyata keçirəcəklər.

Maddə 2

Tərəflər əməkdaşlığı aşağıdakı formalarda həyata keçirirlər:

1.Tərəflərin razılaşdırdığı göstəricilərin siyahısına əsasən statistik informasiya mübadiləsi;

2.statistika nəşrləri mübadiləsi;

3.statistik göstəricilər sisteminin yaradılması və fəaliyyəti, cari statistik tədqiqatların və siyahıyaalmaların keçirilməsi üzrə metodoloji materialların və sənədlərin mübadiləsi;

4.keçid dövrü şəraitində inkişafın praktiki məsələlərinə dair təcrübə mübadiləsi;

5.dövlət statistika orqanlarının mütəxəssislərinin ixtisasının artırılması məqsədi ilə qarşılıqlı praktiki yardım göstərilməsi.

Maddə 3

(1) Əməkdaşlıq tətbiq etmə mövzuları və metodları, eləcə də maliyyələşdirmə formalarını əks etdirən və hər iki Tərəfin razılığı ilə məzmununa əlavələr edilən və ya dəyişdirilən illik planlara uyğun olaraq həyata keçiriləcəkdir.

(2) Bütün nəqliyyat xərclərinə görə məsuliyyəti göndərən Tərəf, nümayəndə heyətinin ölkədə olma xərclərini (gündəlik yemək və mehmanxanada qalma xərclərini) isə qəbul edən Tərəf öz üzərinə götürür.

(3) Göstərilən əməkdaşlıq planları hər iki Tərəfin təyin etdiyi rəsmi şəxslər tərəfindən əlaqələndirilir.

Maddə 4

Tərəflər əməkdaşlığı mərkəzi dövlət statistika orqanları səviyyəsində həyata keçirəcək və əməkdaşlığın region səviyyəsində inkişaf etdirilməsinə yardım edəcəklər.

Maddə 5

(1) Bu Saziş imzalandığı gündən qüvvəyə minir.

(2) Bu Saziş üç il müddətinə bağlanır və əgər növbəti müddətin başa çatmasına ən azı altı ay qalmış Tərəflərdən heç biri onun qüvvəsinin dayandırılması haqqında öz niyyətini yazılı şəkildə təqdim etməzsə, Saziş avtomatik olaraq daha üç il müddətinə uzadılır.

(3) Tərəflərin qarşılıqlı razılığı ilə bu Sazişə onun tərkib hissəsi sayılan ayrıca Protokol ilə rəsmiləşdirilən dəyişikliklər və dəqiqləşdirmələr əlavə edilə bilər.

Bakı şəhərində dekabrın "2"-də 1999-cu il tarixində azərbaycan, bolqar və rus dillərində iki əsl nüsxədə imzalanmışdır və hər iki nüsxə eyni qüvvəyə malikdir.

Hazırkı Sazişin təfsiri məqsədilə rus dilindəki mətndən istifadə olunacaqdır.

| | |
|---|---|
| Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi adından | Bolqarıstan Respublikası Milli Statistika İnstitutu adından |